Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Məmmədov Müslüm Osman oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 157 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 27 dekabr 2009-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Məmmədov Müslüm Osman oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına 26 dekabr 2009-cu ildə daxil olmuş 157 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən, araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Məmmədov Müslüm Osman oğlu və digərləri 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqram ilə müraciət edərək, 80 saylı İmişli-Beyləqan seçki dairəsinin bir neçə seçki məntəqələrinin məntəqə seçki komissiyaları tərəfindən onların seçki hüquqlarının pozulmasını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1 -ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinin pozulması ilə verilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, rəyə gəldim:

1. Vətəndaş Məmmədov Müslüm Osman oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 157 saylı müraciəti araşdırılması üçün aidiyyəti

üzrə 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərar 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov